# Ermənistanın təcavüzü dünya informasiya məkanında

**_Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda əks-həmləsinə dünya ictimaiyyəti birmənalı yanaşmır. Bizi dəstəkləyənlər də var, məsələnin mahiyyətinə birtərəfli mövqedən yanaşaraq faşist Ermənistanın tərəfini saxlayanlar da. Amma heç nədən asılı olmayaraq, müzəffər Azərbaycan Ordusu əzəli torpaqlarımızda tarix yazmaqda, işğal altında olan yurd yerlərimizi düşməndən təmizləməkdə davam edir._**

Artıq Cəbrayıl şəhərində və rayonun 10-dan artıq kəndində Azərbaycan bayrağı qürurla dalğalanır. Ermənistanın siyasi rəhbərliyi aciz və çarəsiz vəziyyətə düşüb. Qorxudan sarısını udan düşmən təlaş içində vurnuxur, bütün qırmızı xətləri keçir və nə etdiyini, nə edəcəyini bilmir. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə ilə bərabər, Ağcabədi, Bərdə, Beyləqan, Mingəçevir, Xızı və Abşeron da düşmənin raket-artilleriya hücumlarına məruz qalır. Dinc əhalinin yaşadığı ərazilərin hədəf seçilməsinə cavab olaraq Azərbaycan Ordusu Xankəndidəki hərbi obyektləri vuraraq məhv edib.

Rəngli inqilab dalğasında Ermənistanda hakimiyyətə gələn, Corc Sorosun yetirməsi olan Nikol Paşinyan Qarabağdakı erməniləri Yerevana qaçmağa çağırıb. Xankəndidə ərzaq çatışmazlığı başlayıb, mağazalar işləmir. Rusiyanın Yekaterinburq şəhərinin "Znak.com" saytı xəbər verir ki, bu barədə yerli sakinlər bildiriblər. Qeyd olunur ki, bununla əlaqədar şəhəri tərk edən insanların axını artır. Onlar İrəvana aparan yol boyunca maşınlarla yola düşürlər.

Bəli, Ermənistanın kriminal rejimi müharibə aparmağın bütün qaydalarını pozaraq yeni çox təhlükəli addımlar atır. Cəbhədən kənar olan rayonlarımızda bir sıra ictimai obyektlər dağıdılıb. Amma bunlar bizi qorxutmur. Mingəçevir su elektrik stansiyası raket hücumuna məruz qalsa da, ordumuz tərəfindən həmin raketlər göydə vurulub.

Dünya ictimaiyyəti erməni terrorizminin aşkar izhar faktlarına artıq soyuqqanlı yanaşa bilmir. Bir sıra ölkələr və beynəlxalq qurumlar narahatlıqlarını ifadə edir, əməliyyatların dayandırılması üzrə gecikmiş çağırışlar edirlər. Qarabağın 30 ilədək erməni işğalını sakitliklə qarşılayanların bu canfəşanlığının səmimi olduğu böyük şübhə altındadır. Türkiyə, Pakistan, Əfqanıstan, İslam və Türk Birliyi üzrə beynəlxalq strukturlar isə haqlı tərəfi – Azərbaycanı dəstəkləyirlər. Kolumbiya Senatı da Ermənistanın təcavüzünü pisləyib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Beynəlxalq ictimaiyyət Qarabağın ermənilər tərəfindən işğal edilməsinə, təəssüf ki, səssiz qalmışdı. Qarabağda baş verənlər sadəcə işğal deyil, həm də qətliam idi… ATƏT-in Minsk qrupu problemi nizamlamaqdansa, onu həlsizliyə apardı. Minsk qrupu bu problemi gözardı etdiyi üçün bu vəziyyət yaranıb. Ermənistan yenidən Azərbaycan ərazisinə hücum etdikdən sonra gözləmədiyi reaksiya ilə qarşılaşdı. Hazırda Qarabağda bir çox yerlər işğaldan azad olunub. Türkiyə olaraq bütün qəlbimizlə Azərbaycanın yanındayıq. Azərbaycanın mübarizəsinə dəstək vermək bütün qürurlu dövlətlərin borcudur. Dünya quldur dövlətlərdən xilas edilməsə, bəşəriyyətin davamlı sülh və əmin-amanlığa qovuşması mümkün deyil. Zəfərədək azərbaycanlı qardaşlarımızın yanındayıq".

Monteneqronun sabiq prezidenti Filip Vuyanoviç Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl olunmasının vacibliyini vurğulamaqla yanaşı, silahlı münaqişənin tezliklə sülh yolu ilə həllinə nail olunacağına ümid etdiyini bildirib.

Təəssüf ki, qeyri-obyektiv olaraq, Ermənistanın xeyrinə birtərəfli mövqe tutan bəzi ölkə rəhbərləri də yox deyil. ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın prezidenti Emmanuel Makron absurd çıxışlarından birində deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Daha bir açıqlamasında "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin TRT telekanalına müsahibəsi zamanı Fransa rəhbərinin söylədiklərinə münasibətini belə ifadə edib: "Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi?" Bir həmsədrin sübut-dəlilsiz və məsuliyyətsiz bəyanatlar verməsi ən azı böyük təəccüb doğurur.

Münaqişəyə ikili standartla yanaşan Kanada hökuməti ötən il "Barış pınarı əməliyyatı"na görə Türkiyəyə silah satışını dayandırdığı kimi, bu dəfə də Azərbaycanın Türkiyə istehsalı olan PUA-larla dastan yazan mübarizəsinə qarşı eyni qərarı qəbul edib. Suriya prezidenti Bəşər Əsəd Dağlıq Qarabağ münaqişəsinin yeni dalğasında Rəcəb Tayyib Ərdoğanı əsas təşəbbüskar kimi qələmə verib. Belə hallar nə döyüş ruhumuzu, nə silah təchizatımızı sarsıda, nə də qardaş Türkiyənin ölkəmizə mənəvi dəstəyini şübhə altına sala bilər.

Emmanuel Makrondan, Bəşər Əsəddən, Kanada hökumətindən fərqli olaraq, dünyanın bir çox tanınmış siyasətçiləri, ekspertləri Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək hüququna sahib olduğunu və beynəlxalq hüquq normaları çərçivəsində hərəkət etdiyini söyləyirlər.

…Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşü zamanı Dağlıq Qarabağ problemini də qaldırıb: "Ermənistanın mülki əhaliyə hücumu yeni deyil. Xocalıda insanları uşaq, qadın demədən necə qətl etdiyini görübsünüz. İndi təmas xəttində həm hərbçilərə, həm də dinc insanlara hücum edib, bir çox mülki vətəndaş həlak olub. Çarəsiz qalan Ermənistan dinc əhalini hədəf alaraq raket göndərməyə başlayıb, bu, əslində hərbi cinayətdir. Azərbaycan isə öz torpaqlarını geri almaq üçün mübarizə aparır. Bütün beynəlxalq təşkilatlar və ölkələr ya çox balanslaşdırılmış olmağa çalışır, ya da Ermənistanı dəstəkləyən açıqlamalar verir. Bu problemi çözmək üçün qurulan Minsk qrupundan Fransa açıq şəkildə Ermənistana dəstək verir. Həm Türkiyə, həm də Qərb ölkələri olaraq buranın ərazi bütövlüyünü dəstəkləyirik. Hər kəsin Ermənistanı bu əraziləri tərk etməsi çağırışı etməsi lazımdır. Bu, 30 ildir davam edir. Ermənistan bu işğalın dadını çıxarır. Kimdən cəsarət alırsa, Azərbaycana hücum edir. Hər kəs haqlının yanında olmalıdır".



"Terror qruplaşmaları ilə əməkdaşlıq edən Ermənistan cəbhədə qəhrəman Azərbaycan Ordusu qarşısında böyük məyusluğa uğrayınca əvvəlcə qarayaxma kampaniyası aparsa da, hamısının yalan olduğu çox qısa zamanda məlum oldu". – Bunu isə "Haberturk"ün verdiyi məlumata görə, Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar bildirib. O deyib ki, sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq, yanında olacağıq.

"RİA Novosti" xəbər verir ki, rəsmi elmi-analitik jurnal olan "Avropa İnsan Haqları Məhkəməsi Bülleteni"nin baş redaktoru Yuri Berestnev Avropa İnsan Haqları Məhkəməsində Türkiyəyə qarşı iddia qaldıran Ermənistanın Türkiyəni münaqişənin tərəfinə çevirmək istədiyini vurğulayıb. Onun fikrincə, Türkiyəni münaqişə tərəfinə çevirmək cəhdlərinin məqsədi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) münaqişəyə cəlb etməkdir.

Kiyevdə "Ukrayna xəbərləri" İnformasiya Agentliyinin mətbuat mərkəzində "Qarabağda müharibə: Ukraynadan baxış" mövzusunda keçirilən "dəyirmi masa"da "Doktrina" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Yaroslav Bojko Dağlıq Qarabağda yeni münaqişənin yaşanmasının əsas səbəbi kimi beynəlxalq cəmiyyətin həll modellərinin effektivsiz olduğunu göstərib: "Faktiki olaraq nüfuzlu oyunçuların heç biri hələ yayda baş verən və kəskinləşməyə səbəb olan və onu stimullaşdıran təxribatlara doğru-düzgün reaksiya göstərmədi".

Milli Strateji Araşdırmalar İnstitutunun nümayəndəsi Denis Moskalik də bənzər fikir söyləyib: "İndi baş verən döyüşlər mahiyyət etibarilə Tovuz rayonundakı iyul toqquşmalarının davamı və Azərbaycan və Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədində hərbi əməliyyatlar aparmaq cəhdləri fonunda daha da aktivləşən münaqişənin həllinə dair uğursuz cəhdlərinin nəticəsidir. Hazırda gedən döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin xeyli artdığını, o cümlədən də ən yeni silahlardan, pilotsuz uçan aparatlardan və dron-kamikadzelərdən aktiv və uğurlu istifadə etdiklərini göstərdi".

Beynəlxalq əlaqələr sahəsində mütəxəssis olan ukraynalı tarix elmləri namizədi Aleksandr Dudnik Ukraynanın Dağlıq Qarabağ münaqişəsində Rusiyadan fərqli olaraq Kosovo presedentini münaqişənin həlli mexanizmi kimi tanımadığını qeyd edib: "Ukrayna üçün prioritet dövlət suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq prinsiplərdir. Qeyd etmək lazımdır ki, Ermənistan millətin öz müqəddəratını təyinetmə hüququ ilə manipulyasiya edir. Axı ermənilərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bir dövləti var. Onların arqumentləri ilə hərəkət etsək, Ukraynadakı çoxsaylı erməni diasporu dövlətimiz daxilində özünün başqa bir dövlətinin yaradılması ideyası ilə çıxış edə bilər".

Bu isə ukraynalı şairə, ictimai xadim Lesya Mudrakın fikirləridir: "Azərbaycana səfər edərkən ölkədə mədəniyyətlərarası və dinlərarası dialoqun dövlət səviyyəsində necə təşviq edildiyinə əmin oldum. Ukraynalılar kimi, azərbaycanlılar da çox səmimi, tolerant və mehribandırlar. Dualarımız bu gün Azərbaycan xalqı ilədir. Axı Azərbaycan xalqının indi nə hiss etdiyini biz hamıdan yaxşı başa düşürük. Ölkələrimizin ərazi bütövlüyünün bərpa olunacağına və torpaqlarımızda sülh olacağına inanıram".

Məşhur erməni bloger Tiqran Köçəryan Paşinyanı Ermənistanın Dağlıq Qarabağ savaşında uduzmasında ittiham edib. O, Rusiyanın artıq Ermənistanı dəstəkləmədiyini bildirərək, Paşinyan hökumətinin Stepanakertdə (Xankəndi) rus hərbçilərinin olması barədə yalan şayiələr yaydığını iddia edib. Bloger, həmçinin Dağlıq Qarabağın cənub cəbhəsində (Füzuli-Cəbrayıl istiqamətində) ermənilərin tam iflasa uğraması, yaralıları daşımaq üçün maşınların olmaması səbəbindən, bir çoxunun ölməsi, cəbhənin şimal tərəfində (Ağdərə istiqamətində) isə döyüşlərə cəlb olunmuş muzdluların Azərbaycanın artilleriya həmləsinə tab gətirməyərək qaçması barədə yazıb.

Ən maraqlısı isə, Tiqran Köçəryan N.Paşinyanın Gəncəni vurmaq əmrini verməkdə ittiham etməsidir. Tiqran Köçəryan anlayır ki, bunun nəticəsində Ermənistanın şəhərlərini işğal olunmuş Xankəndinin gündəlik bombalanması kimi aqibət gözləyə bilər.

İraqın dini liderlərindən biri olan Ayətullah Uzma Seyid Məhəmməd Səid əl-Təbatəbai əl-Həkiminin cəbhədəki vəziyyətlə bağlı yaydığı bəyanatda deyilir: "BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən, Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməsinə, ərazilərin zorla işğalına son qoyulmasına və bütün məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmasına şərait yaradılmasına çağırırıq".

"Azərbaycan öz ərazisinin siyasi cəhətdən mühüm hissəsini geri qaytaranadək əks-hücumunu davam etdirəcək". – Bu barədə ABŞ dövlət katibi köməkçisinin keçmiş müavini, Amerikanın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Metyu Brayza "Region Plus" jurnalına müsahibəsində bildirib: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə var. Orada Ermənistan Azərbaycanın işğal altında olan torpaqlarının dərhal tərk etməyə çağırılır və döyüş əməliyyatlarının dayandırılmasına çağırış edilir. 1994-cü ildə döyüş hərəkətləri doğrudan da dayandırılıb, amma Ermənistan hələ oradan getməyib. Sözügedən qətnamələr beynəlxalq hüququn ən ali təzahürüdür. Buna görə də bu gün Ermənistan beynəlxalq hüquqdan kənardır və Azərbaycanın özünün işğal altında olan torpaqlarını qaytarmağa tam haqqı çatır". Başqa bir çıxışında isə Metyu Brayza vurğulayıb ki, Azərbaycanın bu ərazini (Dağlıq Qarabağı) saxlamaq üçün yaxşı imkanları var. Odur ki, yaxın bir neçə gün, yaxud bir neçə həftə ərzində döyüşlərin səngidiyini görə biləcəyik.

Bir müddət öncə Şuşada andiçmə mərasimi keçirmiş Qarabağ separatçılarının başçısı Araik Arutyunyan gizləndiyi bunkerdə ağır yaralanandan sonra heç harada görünmür. "News.am" xəbər verir ki, o, bu yaxınlarda "Facebook" səhifəsindən erməni icması ilə "əlaqə saxlayacaq". Əcaba, guya döyüş bölgəsində olduğu iddia edilən Araik öz camaatına nə deyəcək?

Yeri gəlmişkən, Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili hazırkı vəziyyət barədə "Facebook" səhifəsində yerləşdirdiyi videomüraciətində deyib: "Mən Gürcüstanın övladı, Ukraynanın vətəndaşıyam. Həm gürcülər, həm də ukraynalıların ərazi bütövlüyü prinsipini dəstəkləməmələri mümkün deyil. Separatçılığı dəstəkləmək qeyri-mümkündür. Etnik mənsubiyyətindən asılı olmayaraq separatçılığı dəstəkləyən istənilən gürcü Gürcüstana qarşıdır. Ukrayna hökumətinin də bildirdiyi kimi və mənim də dəfələrlə dediyim kimi, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq..."

Azərbaycan Prezidenti İlham Əliyev "TRT Haber" telekanalına müsahibəsində atəşkəs çağırışlarına cavab olaraq bunun üçün əsas şərtin zəmanət olduğunu bildirərək deyib: "Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda, təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar".

Bəli, yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə tarixi ədalət təmin ediləcək.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***